**“İstifadəsinə icazə vərəqəsi verilən radioelektron vasitələrin Siyahısı”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanının 1.6-cı bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“İstifadəsinə icazə vərəqəsi verilən radioelektron vasitələrin Siyahısı” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 24 noyabr 2016-cı il
480

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2016-cı il 24 noyabr
tarixli 480 nömrəli qərarı ilə
təsdiq edilmişdir.

**İstifadəsinə icazə vərəqəsi verilən radioelektron vasitələrin Siyahısı**

| **Sıra nömrəsi** | **Məhsulların siyahısı** | **Məhsulların XİFMN üzrə kodları** |
|---|---|---|
| 1. | Peyk və radiorele stansiyası | |
| 2. | Radiobaza stansiyası | 851761009 |
| 3. | Radioyayım ötürücüsü | 852550009 |
| 4. | Gəmi stansiyaları | |

**Qeyd.** Bu Siyahının 1-ci və 4-cü hissələrində göstərilən məhsulların XİFMN üzrə kodları idxal zamanı onların adından, tipindən, növündən, markasından və tərkibindən asılı olaraq müəyyən edilir.